AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №3, səh. 158-163 (2013)

Bəzi Otaq Bitkilərinin Abşeron Şəraitində İntroduksiyası

T.S.Məmmədov, Ş.A.Gülməmmədova

AMEA Mərdəkan Dendrarisi, Bakı şəhəri, Mərdəkan qəsəbəsi, S.Yesenin küç. 89, Baku AZ 1044 Azərbaycan; E-mail: shalala.g@mail.ru

Mərdəkan Dendrarisində bəzi otaq bitkilərinin bioekoloji xüsusiyyətləri öyrənilmişdir. Müəyyən edilmişdir ki, tədqiq edilən növlər Abşeronun torpaq-iqlim şəraitinə yaxşı uyğunlaşır. Bu bitkilərin oranjereyaların və otaqların tərtibatında istifadəsi tövsiyə olunur.

Açar sözlər: *bitki, aqrotexnika, dekorativ, oranjereya, introduksiya*

GİRİŞ

Otaq bitkilərinin yaratdığı sağlam ekoloji mühit böyük əhəmiyyətə malikdir. Otaq bitkiləri insanların yaşadıqları mənzillərdə, işlədikləri müəssisərdə, oranjereyalarda, təhsil aldıqları məktəb və universitetlərdə, saray və teatrların foyelərində, vestibüllərində becərilərək havanı təmizləyir, oksigen çatışmazlığını aradan qaldırır, hərəkət zamanı yaranmış toz dənəciklərini özünə hopdurur. Otaq bitkilərinin becərilməsində əsas məqsəd örtülü yerlərdə: müəssisələrdə, mənzillərdə, tədris ocaqlarında və s. yerlərdə estetik zövq və ekoloji tarazlıq yaratmaqdır. Bu isə bitkilərin özünəməxsus formasını saxlamaqla zədəsiz, bioloji xüsusiyyətinə uyğun böyüməsindən asılıdır. Gözəl güllər, yaraşıqlı yarpaqlar, dadlı meyvələr evlərə harmoniya və rahatlıq gətirir, göz oxşayır, qışda yayı xatırladır. Bitkilərin ifraz etdiyi havatəmizləyici maddələr isə gözəl qoxuya malik olub, otağı oksigenlə zənginləşdirir. Bəzi bitkilər isə insan sağlamlığı üçün bakterioloji xüsusiyyətlərə malik uçucu fitonsid maddələr buraxır. Respublikamız müstəqilliyə qədəm qoyduqdan sonra bioloqlar və gül həvəskarları dünyanın bir çox tropik və subtropik vilayətlərindən Azərbaycana müxtəlif növ bitkilər gətirir, yerli şəraitdə adaptasiya imkanlarını öyrənirlər ki, buda dendrofloranın artırılmasına və genofondun zənginləşdirilməsinə xidmət edir.

Bir çox otaq bitkiləri Avropaya hələ XIX əsrdə Avstraliyadan, Afrikadan, Hindistandan, Çindən gətirilmişdir. Bu gündə bu bitkilər insanlar tərəfindən sevilir. Artıq bizim yüzilliyin I yarısın-dan bitkilər otaqların, sarayların bəzədilməsində geniş istifadə olunurdu. Bitkilər ilk dəfə tropik vilayətlərdən Avropaya 15-ci əsrdə səyahətçilər tərəfindən gətirilmişdir. O vaxtlar Hollandiyadan, İngiltərədən və İspaniyadan olan səyahətçilər yeni torpaqlar kəşf edirdilər. Elə bu dövrdə də Avropada otaqların bəzədilməsində bitkilərdən istifadə edirdilər. İlk oranjereyalar bizim eramızdan əvvəl Qədim Romada tikilmişdir. Respublikamızda otaq bitkilərinin becərilməsi 1860-cı ildən, oranjereyalar isə 1940-cı ildən gül həvəskarları tərəfindən yaradılmışdır (Məmmədov, 2007).

Otaq bitkilərindən sindapsus, əzvay, fikus, monstera, xlorofitum, rozmarin, ətirşah və s. otağın havasını karbon və azot oksidlərindən, fenoldan, ağır metallardan, radioaktiv maddələrdən, tozdan təmizləyir, çox təhlükəli virus, bakteriya və digər mikroorqanizmlərin yayılmasının qarşısını alır (Əhmədov, 2003).

Tropik bitkilər otaq şəraitində düz günəş şüalarının altına qoyulmamalıdır. Gündə ılıq su ilə bir neçə dəfə çilənmə isə yüksək nəmişliyi əvəz edir. Qışda işıq az olanda temperaturu və suvarılmanı azaltmaq lazımdır, yəni bütün digər amilləri fotosintezin intensivliyinin azalması ilə uyğunlaşdırmaq lazımdır (Voronova, 2002).

Bitkilər özünü yaxşı hiss etməsi və gözəl görünüşünü saxlamaqları üçün bir sıra tələblərə cavab verən otaqda saxlanılmalıdır. Otaqda yaxşı ventilyasiya, düzgün işıqlanma, havanın lazımı nəmişliyi və müəyyən temperatur rejimi olmalıdır (Şişkova, 2007).

Otaq bitkiləri bizim gözümüzü gözəl çiçəklərlə və müxtəlif formalı yarpaqlarla oxşamaqla yanaşı otaqda havanı təmizləyir. Bir çox növlərdə mikroorqanizmləri öldürən və ya onların böyümə və inkişafını zəifldən uçucu və uçucu olmayan maddələr kompleksi vardır (fitonsidlər). Bitkilərin fitonsidliyi çox tez aşkar olunur: onların otaqda hətta 24 saatlıq olmasından sonra təsir zonalarında mikrobların ümumi miqdarının azalması hiss olunur. Havanın çox təmizlənməsi üç həftədən sonra müşahidə edilir. Tropik və subtropik dekorativ bitkilərin bütün öyrənilən növləri hansısa dərəcədə fitonsid aktivliyə malikdir, ona görə onları otaqların atmosferinin sağlamlaşdırılması üçün istifadə etmək olar (Artamonova, 1986).

Bitkilərin yaxşı becərilməsi üçün onların təbii yaşayış mühitinin xüsusiyyətlərini bilmək və imkan daxilində becərilmə şəraitini onlara yaxınlaşdırmaq çox vacibdir. Otaqda bitkilər insanın həyat şəraitinə uyğunlaşmağa məcbur olur və buda bitkilərin həyat tələblərinə uyğun gəlmir. Burada bitkilər çox vaxt işığın çatışmazlığından, havanın quruluğundan, çox

istidən və ya əksinə çox soyuqdan əziyyət çəkir. Bununla belə bitkilərin boy və inkişafını təmin edən bütün həyat amilləri bir-birilə sıx bağlıdır. Onların hər birinin çoxluğu və ya çatışmazlığı digərinin dəyişməsinə gətirib çıxarır. Məsələn, qışda işıq çatışmadıqda bitkilər onlar üçün minimal temperaturda saxlanılmalıdır. Bu dövrdə bitkilərin suya ehtiyacı azalır. Otaqda hər bitki üçün bütün parametrlər üzrə optimal yer seçilməli, lazımı şərait olmadıqda isə onları süni olaraq yaratmaq lazımdır: bitkini əlavə lampalarla işıqlandırmaq, istilik cihazlarının quruducu təsirindən, soyuq qış havasından və s. qorumaq lazımdır. Çox tələbkar bitkilər üçün çox vaxt xüsusi otaq istixanaları, tənzimlənən işığı və mikroiqlimi olan pəncərə vitrinləri düzəldilir. Hansısa otağın yaşıllaşdırılması üçün bitkilər seçildlkdə oranın imkanları və funksional xüsusiyyətləri nəzərə alınmalıdır. İş otaqları üçün yaşayış otaqlarına nisbətən daha davamlı bitkilər seçilir (Qolovkina, 1990).

Oranjereya bitkilərinin əksəriyyətinin yaxşı günəş işığına ehtiyacı vardır. Bitkilər yerləşdirildikdə bir-birini kölgələndirməməli, alçaqboy bitkilər hündür bitkilərin qarşısında qoyulmalıdır. Bitkiləri çətirlərinin bir-birinə dəyməsinədək çox sıx qoymaq olmaz. Sıx yerləşdikdə bitkilər lazımı işıq almır və asanlıqla xəstəliklərə məruz qalır. Onların yarpaqları saralır, çox vaxt solur və gözəlliyini itirir. İşığın yaxşı istifadəsi üçün iri bitkiləri pəncərə kənarına deyil, bir az kənarda, xüsusi düzəldilmiş çiçək masalarına və altlıqlarına qoymaq məsləhət görülür. Bitkilərin gözəl və sağlam vəziyyətdə saxlanılması üçün onların vaxtaşırı köçürülməsini aparmaq və düzgün qulluq qaydalarına riayət etmək lazımdır (Prilipko, 1956).

Gündüz və gecənin uzunluğu nisbətinin otaq bitkilərinin həyatında mühüm əhəmiyyəti vardır. Bitkilər tərəfindən qida maddələri ancaq günün işıqlı vaxtında ifraz olunur, müntəzəm olaraq isə tənəffüsə və buxarlanmaya, bəzən isə boy artımına istifadə olunur. Buradan belə qənaətə gəlmək olar ki, gün uzun olduqda bitkilərdə qida maddələrinin əmələ gəlməsi çox olur, gecə uzun olduqda isə qida maddələri çox istifadə olunur. Normal böyümə və inkişaf üçün bitkilərə işıq, hava, istilik və suda həll olunmuş kimyəvi duzların müəyyən miqdarı lazımdır (Tavlinova, 1970).

MATERİAL VƏ METODLAR

Dekorativ və morfoloji xüsusiyyətləri, ekologiyası və interyerdə istifadə imkanlarından asılı olaraq otaq bitkilərini bir neçə qrupa bölmək olar:

1.Dekorativ çiçəkləyən bitkilər
2.Dekorativ yarpaqlı bitkilər
3.Lianalar
4.Ampel bitkilər
5.Epifitlər
6.Sukkulentlər

Otaq bitkilərinin bioekoloji xüsusiyyətlərini, xarici mühit amillərinə davamlığını, aqrotexnikasını bilmədən, həmin bitkilərin otaq və ya oranjereya şəraitində becərilməsi mümkün deyildir. İnteryerdə otaq bitkilərindən istifadə edilməsi həm dizayn, həm də sağlamlıq baxımından çox əhəmiyyətlidir. Məhz buna görə də AMEA Mərdəkan Dendrarisinin "Landşaft memarlığı" laboratoriyasında 2011-2013-cü illərdə aparılmış elmi-tədqiqat işində oranjereya şəraitində tropik və subtropik ölkələrdən introduksiya olunmuş 100 növ dekorativ kol və ot bitkilərinin Abşeron şəraitində bioekoloji xüsusiyyətləri öyrənilmiş, mədəni şəraitdə becərilmə texnologiyaları işlənib hazırlanmışdır.

Oranjereya şəraitində bəzi bitkilərin yarpaqlama, qönçələmə və çiçəkləmə dövrləri şəkil 1-3-də, bəzi dekorativ bitkilərdən düzəldilmiş kompozisiya isə şəkil 4-də göstərilmişdir.



Şəkil 1. Yapon kameliyası qönçələmə və çiçəkləmə dövrlərində

Tədqiqat işində veğetativ orqanların morfoloji xüsusiyyətləri İ.T.Vasilçenkonun (1979) və İ.Q.Serebryakovun (1952) metodikaları ilə öyrənilmişdir. Bitkilərin böyümə dinamikasını təyin etmək üçün vegetasiya başlanandan qurtarana kimi hər 10 gündən bir müşahidə aparılmışdır. Bitkilər üzərində fenoloji müşahidələr aparmaq məqsədilə N.A.Avrorinin (1953), A.Q.Qolovaçın (1962), F.N.Rusanovun (1970) və Rusiya Baş Botanika Bağının işləyib hazırladıqları metodikalardan istifadə olunmuşdur. Bitkilərin istiyə davamlılığı K.A.Axmatov (1972), R.Moles (1992), L.Mucina (1993), quraqlığa davamlılığı isə P.A.Qenkelin (1956) metodikaları ilə öyrənilmişdir.



Şəkil 2. Alabəzək Benjamin fikusu



Şəkil 3. Gözəl südləyən

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Mərdəkan Dendrarisində aparılmış elmi-tədqiqat işində 2011-2013-cü illərin fevral, mart, aprel və may aylarında oranjereyalar yenidən bərpa olunaraq Çin qızılgülü, südləyən, Benjamin fikusu, xamedoreya, pandanus, epipremnum, aqlaonema, kameliya, begoniya, yukka, monstera, spatifillum, səhləb və s. bitkilərin növləri dibçəklərdə alınmış, ləklərdə yarpaqlı, torflu, qumlu (3:2:1) torpaq qarışığı hazırlanmış və daha geniş yerdə yaxşı inkişaf etmələri üçün əksər bitkilərin şitilləri ləklərə köçürülmüşdür. Bitkilərin yerüstü orqanlarının inkişaf dinamikası, fenoloji inkişaf fazaları və morfoloji göstəriciləri üzərində fenoloji müşahidələr aparılmış, xarici mühit amillərinə davamlığı öyrənilmişdir. Bitkilərə vaxtaşırı üzvi və mineral gübrələr verilmiş, suvarılmış, torpaq yumşaldılmış, alaq otlarından təmizlənmişdir. Bitkilər kök yumrusunun, kolun bölünməsi, şitil, qələm və toxumla çoxaldılmış, müxtəlif ölçülü dibçəklərə, yeşiklərə və ləklərə əkilmişdir. Oranjereyada ləklərdə müxtəlif bitkilərdən kompozisiyalar düzəldilmişdir.



Şəkil 4. Oranjereyada dekorativ bitkilərdən kompozisiya

Bəzi oranjereya bitkilərinin taksonomik tərkibi və mənşəyi cədvəl 1-də göstərilmişdir.

Bəzi oranjereya bitkilərinin yarpaqlarının morfoloji göstəriciləri və bitkilərin hündürlüyü cədvəl 2-də göstərilmişdir.

Bəzi oranjereya bitkilərinin çiçəklərinin morfoloji göstəriciləri cədvəl 3-də göstərilmişdir.

NƏTİCƏ

Mərdəkan Dendrarisinin „Landşaft memarlığı“ laboratoriyasında oranjereya şəraitində 100 növ dekorativ kol və ot bitkiləri üzərində aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, bu bitkilər Abşeron şəraitində yaxşı inkişaf edir, yerli mühitə, torpaq-iqlim şəraitinə uyğunlaşır, fenoloji inkişaf fazaları normal keçir və oranjereyaların, otaqların tərtibatında geniş istifadə oluna bilər.

Cədvəl 1. Bəzi oranjereya bitkilərinin taksonomik tərkibi və mənşəyi

№	Fəsilə	Cins	Növ	Vətəni
1	*Amaranthaceae* Juss. - Pencər (Qaratərə)	*İresine* R.Br.- İrezine	*İresine lindenii* Houtte- Linden irezinesi	Amerika
2	*Araceae* Juss. - Danaayağı	*Aglaonema* Schott. - Aqlaonema	*A.commutatum* Schott. - Dəyişkən aqlaonema	Cənub-Şərqi Asiya
3	-------	*Alocasia* Neck.- Alokaziya	*A.macrorhiza* Schott - İri köklü alokaziya	Şərqi Hindistan
4	--------	*Anthurium* Schott.- Anturium	*A.andreanum* Lindl.- Andre anturiumu	Cənub-Qərbi Kolumbiya
5	--------	*Calla* L. - Kalla	*C.palustris* L.- Ağqanadlı kalla	Afrika
6	--------	*Diffenbachia* Schott.- Diffenbaxiya	*D.ricturata* Engl.- Rəngbərəng diffenbaxiya	Amerika
7	--------	*Epipremnum* Schott.- Epipremnum	*E.aureum* Bunt.- Qızılı çalarlı epipremnum	Hindistan, Avstraliya
8	-------	*Monstera* Schott.- Monstera	*M.deliciosa* Lieb.- Gözəl monstera	Amerika
9	-------	*Spathiphyllum* Schott.- Spatifillum	*S.floribundum* L.- Bol çiçəkləyən spatifillum	Amerika
10	-------	*Syngonium* Schott.- Sinqonium	*S.podophyllum* Schott.- Ayaqvari sinqonium	Mərkəzi Amerika
11	*Agavaceae* Endl.- Aqava	*Sansevieria* Thunb. - Sansevyeriya	*S.cylindrica* Bojer - Silindrik sansevyeriya	Qərbi Afrika
12	*Arecaceae* Sch.-Bip. (*Palmae* Juss.) - Palma	*Chamaedorea* Willd.- Xamedoreya	*Ch. elegans* Mart. - Gözəl xamedoreya	Meksika
13	--------	*Howea* Benth. et Hook. - Hoveya	*H.fosteriana* Bees.- Foster hoveyası	Avstraliya
14	*Begoniaceae* C.A.Agardh.- Beqoniya	*Begonia* L. - Beqoniya	*B.tuberhybrida* Voss. - Sallaq beqoniya	Amerika, Asiya
15	*Bromeliaceae* Juss. - Bromeliya	*Aechmea* Ruiz et Pav. - Exmeya	*Ae. fasciata* Lindl. - Zolaqlı exmeya	Braziliya
16	*Acanthaceae* Juss.- Ayıpəncəsi	*Sanchezia* Ruiz et Pav.- Sanşeziya	*S.nobilis* Hook.- Nəcib sanşeziya	Ekvador
17	*Asclepiadaceae* R.Br.- Yapışqanotu	*Hoya* R.Br.- Hoya	*H.carnoza* R.Br. Ətli hoya	Avstraliya
18	*Asparagaceae* Juss.- Asparaqus	*Asparagus* Juss.- Qulançar (Asparaqus)	*A.plumosus* Bak.- Lələkvari qulançar	Cənubi Afrika

Cədvəl 2. Bəzi oranjereya bitkilərinin yarpaqlarının morfoloji göstəriciləri və bitkinin hündürlüyü (sm)

№	Növlərin adları	Həqiqi yarpaqlar								Bitkinin
		hamar	tükcüklü	sayı (əd.)	uzun. (sm)	enı (sm)	sapl. uz. (sm)	forması	damarlanma	hündürlüyü
1	*Ae. fasciata* Lindl. - Zolaqlı exmeya	+		8-9	30-32	8-9	3-4	uzunsov	paralel	30-32
2	*S.purpurea* Boom.- Qırmızı setkreaziya	+		12-14	10-11	3-4	1-2	----	----	30-35
3	*Eu.splendens* Bojer.- Parlaq südləyən	+		30-32	6-7	3-4	2-3	----	----	45-47
4	*H.rosa-sinensis* L.- Çin qızılgülü	+		50-51	11-12	9-10	2-3	----	----	200-202
5	*A.commutatum* Schott. - Dəyişkən aqlaonema	+		30-32	18-19	5-6	4-5	----	----	45-46
6	*S.podophyllum* Schott - Ayaqvari sinqonium	+		30-32	22-23	27-28	20-21	3 hissəli	----	120-122
7	*E.leocotricha* J.A.Purp.- Ağ tüklü exeveriya	+		25-27	5-7	2-3	1-2	üçkünc	----	20-22
8	*İresine lindenii* Houtte - Linden irezinesi	+		50-51	7-8	5-6	2-3	oval	----	125-126
9	*A.macrorhiza* Schott - Iri köklü alokaziya	+		10-12	98-99	65-66	80-82	----	----	150-152
10	*D.ricturata* Engl. - Rəngbərəng diffenbaxiya	+		10-11	38-39	18-19	6-7	----	----	115-117
11	*P.veitchii hort.* Veitch.- Viçi pandanusu	+		30-32	40-42	5-7	5-6	----	----	130-132
12	*P.atropurpureum* Radlk.- Qırmızı pseuderantemum	+		50-52	14-15	6-7	1-2	----	----	125-127

2 saylı cədvəlin davamı

№	Növlərin adları	Həqiqi yarpaqlar hamar	tükcüklü	sayı (əd.)	uzun. (sm)	enı (sm)	sapl. uz. (sm)	forması	damarlanma	Bitkinin hündürlüyü
13	*Ph.hybridus hort.* L.- Hibrid falenopsis	+		4-5	11-12	8-9	2-3	----	----	65-66
14	*E.aureum* Bunt.- Qızılı çalarlı epipremnum	+		20-21	22-23	18-19	12-13	----	----	70-72
15	*C.yaponica* L.- Yapon kameliyası	+		20-21	8-9	7-8	4-5	----	----	70-72
16	*L.hybrida hort.*- Hibrid lantana	+		25-26	9-10	7-8	2-3	----	torvari	40-50
17	*H.arborescens* L.- Ağacvari yapongülü	+		30-31	10-11	6-7	2-3	----	----	35-36
18	*P.zonale* L.- Zonal şamdangülü	+		20-22	8-9	9-10	10-11	yumru	----	50-60

Cədvəl 3. Bəzi oranjereya bitkilərinin çiçəklərinin morfoloji göstəriciləri (sm)

№	Növlərin adları	Bir bitkidə çiçəkl. sayı (əd.)	Çiçək. rəngi	Çiçək. uzun. (sm)	Çiçək. eni (sm)	Ləçək. sayı (əd.)	Ləçək. uzun. (sm)	Ləçək. eni (sm)	Çiçək saplağ. uzun. (sm)
1	*C.palustris* L.- Ağqanadlı kalla	3-4	ağ	9-10	6-7	1 örtük	9-10	6-7	35-36
2	*A.andreanum* Lindl.- Andre anturiumu	5-6	qırm., ağ	8-10	9-10	----	8-10	9-10	42-43
3	*S.floribundum* L.- Bol çiçəkləyən spatifillum	3-4	ağ	23-25	11-12	----	23-25	11-12	15-16
4	*M.deliciosa* Lieb.- Gözəl monstera	1-2	ağ	21-22	9-10	----	21-22	9-10	20-21
5	*S.purpurea* Boom.- Qırmızı setkreaziya	3-4	bənövşəyi	1-2	1,5-2	3	1-2	0,7-1	1-2
6	*H.rosa-sinensis* L.- Çin qızılgülü	15-16	qırmızı	9-10	9-10	5	5-6	3-4	6-7
7	*E.leocotricha* J.A.Purp.- Ağ tüklü exeveriya	5-6	ağ	0,7-1	0,7-1	5	0,7-1	0,5-0,7	3-4
8	*Eu.splendens* Bojer.- Parlaq südləyən	7-8	açıq qır.	1,5-2	1-2	2	0,5-0,7	0,7-1	1-2
9	*Ph.hybridus hort.* L.- Hibrid falenopsis	3-4	tund bənöv.	5-6	5-6	6	2,5-3	3-4	2-3
10	*C.roseus* L.- Çəhrayı katarantus	2-3	çəhrayı	3-4	3-4	5	1,5-2	1,5-2	4-5
11	*P.zonale* L.- Zonal şamdangülü	3-4	qır., ağ, çəhrayı	5-6	6-7	çoxləç.	1,5-2	1-2	12-13
12	*Ae. fasciata* Lindl. - Zolaqlı exmeya	1-2	çəhrayı	17-18	17-18	----	7-8	1,5-2	12-13
13	*İresine lindenii* Houtte - Linden irezinesi	5-6	ağ	5-6	2-3	----	0,5-0,7	0,3-0,5	2-3
14	*H.arborescens* L.- Ağacvari yapongülü	7-8	çəhrayı	10-11	10-11	----	1,5-2	1,5-2	30-31
15	*L.hybrida hort.*- Hibrid lantana	10-11	çəhrayı, mər.sarı	3,5-4	3,5-4	----	0,7-1	0,7-1	6-7
16	*C.yaponica* L.- Yapon kameliyası	8-9	ağ, çəhr.	7-8	7-8	----	2-3	3-4	3-4
17	*B.maculata* Raddi.- Xallı beqoniya	10-11	çəhrayı	6-7	8-9	----	1,5-2	1,5-2	4-5
18	*Eu.pulcherrima* Willd.- Gözəl südləyən	20-21	sarı	0,5-1	0,3-0,5	----	0,3-0,5	0,2-0,4	6-7

ƏDƏBİYYAT

Əhmədov F. (2003) Məktəbin canlı guşəsi: Otaq bitkiləri və onlara qulluq. Bakı, Nurlar: 3 s.

Məmmədov T.S. (2007) Otaq bitkiləri ensiklopediyası. Bakı, Çaşıoğlu: 6, 8.

Аврорин Н.А. (1953) Акклиматизация и фенология. *Бюлл. ГБС АН СССР,* **16:** 8-11.

Ахматов К.А. (1972) Полевой метод определения жароустойчивости растений. *Бюлл. ГБС АН СССР,* **86:** 73-74.

Под ред. Артамоновой И.К. (1986) *Цвето-*

водство (М.) **№6:**16 с.

Васильченко И.Т. (1979) Определитель всходов сорных растений. Ленинград, Колос: 181-182.

Под ред. Вороновой Н. (2002) В мире растений. Москва, Фонд актуальной биологии ABF: **№11:**15 с.

Головач А.Г. (1962) Декоративные и другие полезные растения в природе и культуре. М.-Л.: АН СССР: 39-98.

Генкель П.А. (1956) Диагностика засухоустойчивости культурных растений и способы её повышения. *Методические указания.* Москва, АН СССР: 69 с.

Под ред. Головкиной Б.Н. (1990) Комнатные растения. Москва, Лесная промышленность: 7 с.

Под ред. Прилипко Л.И. (1956) Вопросы озеленения Апшерона. Баку, АН Азерб. ССР: 166 с.

Русанов Ф.Н. (1970) Вопросы, разрешаемые при изучении интродуцированных растений. Академия Наук Узбекской ССР. *Ботанический Сад. «Интродукция и акклиматизация растений».* Ташкент, ФАН: **Вып. 7:** 187-194.

Серябряков И.Г. (1952) Морфология вегетативных органов высших растений. Москва, Советская наука: 293 с.

Тавлинова Г.К. (1970) Цветоводство. Ленинград, Лениздат: 30 с.

Под ред. Шишковой Н. (2007) Ландшафтный дизайн, Москва, Зеркало. **2**: 15 с.

Moles R. (1992) Trampling damage to vegetation and soil cover at patwithin Burren National Park, Mullach mor, Co Clare. *İrish Geogr.*, **25(2):** 129 p.

Mucina L., Grabherr G., Ellmaner T. (1993) Die Pflanzen gesell schaften Oster reichs. *Teil Jena, G.F.V.*, **55**: 490 p.

Интродукция Некоторых Комнатных Растений В Условиях Абшерона

Т.С.Мамедов, Ш.А.Гюльмамедова

Мардакянский Дендрарий НАНА

В Мардакянском Дендрарии изучены биоэкологические особенности некоторых комнатных растений. Выявлено, что исследованные виды хорошо адаптируются в почвенно-климатических условиях Абшерона. Рекомендовано использование этих растений в оформлении оранжерей и комнат.

Ключевые слова: *растение, агротехника, декоративный, оранжерея, интродукция*

Introduction of Some Room Plants under Conditions of Absheron

T.S.Mammadov, Sh.A. Gulmammadova

Mardakan Arboretum, ANAS

Bioecological features of some room plants have been studied in Mardakan arboretum. It was revealed that studied species were well adapted in soil - climatic conditions of Absheron. These plants are recommended for use in arrangement of greenhouses and rooms.

Key words: *plant, agrotecnics, decorative, greenhouse, introduction*